| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 29.06.2022 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 567-VIQD |
| **ADI** | “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 30.07.2022, Nəşr nömrəsi: 159), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31.07.2022, Nəşr nömrəsi: 7, Maddə nömrəsi: 712) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 01.09.2022 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 380.020.010 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 12202206290567 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 02.08.2022 |

**“Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004,   1, maddə 9,   8, maddə 598,   9, maddə 668; 2007,   4, maddə 320,   5, maddə 446,   7, maddə 712,   11, maddə 1078; 2008,   6, maddə 470,   7, maddə 608; 2010,   7, maddə 590; 2011,   4, maddə 266,   11, maddə 982; 2012,   6, maddə 521; 2014,   2, maddə 84; 2015,   5, maddə 491; 2018,   3, maddələr 375, 394,   5, maddə 887; 2019,   4, maddə 592) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 71.1-ci maddədə “Azərbaycan Respublikası Milli Məclisi deputatının aldığı məbləğdə” sözləri “aylıq vəzifə maaşının 50 faizi məbləğində” sözləri ilə əvəz edilsin;

1.2. 71.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“71.2. Konstitusiya Məhkəməsi sədrinin aylıq vəzifə maaşı 3550 manatdır.”;

1.3. 72.2-ci və 73.6-cı maddələr ləğv edilsin;

1.4. 73.9-cu maddədən “, 73.6-cı” sözləri çıxarılsın.

**Maddə 2.** Bu Qanun 2022-ci il sentyabrın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 iyun 2022-ci il
567-VIQD